**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**AYNA ŞIRZAD QIZI HACIYEVA**

# PSİXO-EMOSİONAL HALLARIN TƏLƏBƏ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINA TƏSİRİ

**6107.01 -Ümumi psixologiya**

**psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**BAKI – 2016**

Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil Problemləri Institutunun Psixologiya və yaş fiziologiysı şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: Psixologiya üzrə elmlər doktoru, professor
İsfəndiyar Məmmədhüseyn oğlu Novruzlu

Rəsmi opponentlər: Psixologiya üzrə elmlər doktoru, professor
**Elnarə İbrahim qızı Şəfiyeva**

Psixologiya üzrə fəlsəfə doktoru
**Elnarə Əhməd qızı Əhmədova**

Aparıcı təşkilat: Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrası

Müdafiə "_29____" "__09__________" 2016-cı il saat___ da Bakı Dövlət Universitetinin nəzdində psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.014 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan**:** AZ 1148, Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23, II korpus, aidutoriya 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" "______________" 2016-cı ildə göndərilib.

FD.02.014 Dissertasiya
şurasının elmi katibi,
psixologiya üzrə fəlsəfə
doktoru, dosent **Rəşid Vəkil oğlu Cabbarov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Cəmiyyətin həyat fəaliyyətinin müxtəlif sahələrində baş verən köklü dəyişikliklər əvvəlcə əhalinin ayrı-ayrı qruplarının, daha sonra isə bütün cəmiyyət üzvülərinin psixo-emosional vəziyyətində mühüm dəyişikliklərə gətirib çıxarır. Baş verən hadisələrə emosinal münasibət insan həyatının ayrılmaz hissəsini təşkil edir. Siyasi, iqtisadi dəyişikliklərin insan şəxsiyyətinə təsirinin müsbət tərəfləri olduğu kimi, bu proses ayrı-ayrı fərdlərdə psixoemosional gərginliyin səviyyəsinin yüksəlməsinə də səbəb olur. İnsanların psixi sağlamlığına mənfi təsir edən emosional hallar həyatdan məmnun olmamaq, sabaha inamsızlıq, gələcəklə bağlı qorxu və s.formalarda təzahür edir.

Qeyd edək ki, müasir dövrdə insanlar həyatda saysız-hesabsız çətin həyati situasiyalarla rastlaşırlar ki, bu da istər-istəməz onlarda emosional gərginlik yaradır. Məlumdur ki, emosional halət istənilən yaş dövründə təzahür etməklə, fərqli mahiyyət daşıyır. Bu baxımdan, tələbə gənclərin psixo-emosional vəziyyətinə həm subyektiv, həm də obyektiv amillər təsir göstərir. Obyektiv amillərə yaş, cins, sağlamlıq səviyyəsi, tədris yükünün çoxluğunu misal göstərmək mümkündür. Subyektiv amillərə isə motivasiya, bilik səviyyəsi, yeni şəraitə adaptasiya olmaq qabliyyəti, psixofizioloji xüsusiyyətlər, şəxsi keyfiyyətləri aid etmək olar. Faktlar göstərir ki, tələbələrdə emosional gərginliyinin dəf edilməsinin əsasən iki başlıca istiqaməti mövcuddur. Birincisi tələbələrə özünütənzimləmə vərdişlərinin və üsullarının aşılanması və emosional gərginliyin dəf edilməsi üsullarının öyrədilməsi; ikinci istiqamət isə ali təhsil müəssisəsində təhsil prosesinin təşkili - onun humanistləşdirilməsi, təlimin emosionallığının yüksəldilməsini özündə ehtiva edir.

Bir məsələni də qeyd edək ki, insan amilinin öndə durduğu müasir dövrdə gənc nəslin, ahəngdar inkişaf etmiş, ictimai cəhətdən fəal olan, mənəvi zənginliyi,əxlaqı saflığı və fiziki kamilliyi özündə birləşdirən şəxsiyyət kimi tərbiyə olunması vacib bir məsələ kimi qarşıda durur. Ona görə də şəxsiyyətin necə formalaşması, bu prosesə təsir edən amillər diqqəti ilk növbədə cəlb edən problemlərdəndir. Şəxsiyyətin formalaşmasına təsir edən amillərin psixoloji yönümdən araşdırılması əsas vəzifələrdən biridir. Psixoloq və pedaqoqların apardıqları çoxsaylı tədqiqatlara baxmayaraq problemin tam mənası ilə həll olunduğunu söyləmək olmaz. Ona görə də tədqiqatın mövzusunun “Psixo-emosional halların tələbə şəxsiyyətinin formalaşmasina təsiri” kimi müəyyənləşdirilməsini daha məqsədəuyğun hesab etmişik.

**Mövzunun işlənmə səviyyəsi.** Emosional hallar haqqında psixologiyada aparılan araşdırmalar çoxsahəlidir. Bu tədqiqatlarda emosiyaların mahiyyəti,

onların başvermə səbəbləri, təzahür xüsusiyyətləri, psixikaya təsiri və s.məsələləraraşdırılır. Bir sıra tədqiqatçılar (V.Vundt, S.L. Rubinşteyn, L.S.Vıqotski, K.İzard,A.N. Leontyev, V.K.Vilyunas, R.Reykovski, U.Kennon, P.K. Anoxin, İ. Pavlov və b.) öz yanaşmasında emosiyaların təbiətini, yaranma şəraitini, fizioloji və neyropsixoloji mexanizmlərini araşdırmışlar.

Bir sıra tədqiqatçılar isə (V.K.Vilyunas, P.V.Simonov, K.İzard, U.Makdoqual, P.M.Yakobson, B.U.Dodonov) emosiyaların funksiyalarını, (S.L.Rubinşteyn, P.M.Yakobson, A.N.Leontyev, V.K.Vilyunas, L.M.Abolin və b.) emosiya və fəaliyyətin qarşılılqı əlaqəsinin tədqiqinə, Y.Reykovkiy, L.S.Vıqotski) emosiyalar və idrak proseslərinin əlaqəsini, (K.Q.Yunq, B.S.Merlin) emosional inkişafın fərdi-tipoloji xüsusiyyətlərdən asılılığını tədqiq etmişdilər.

Ali məktəb tələbələrinin şəxsiyyətinin emosional və kommunikativ keyfiyyətlərinin tədqiq edilməsi bağlı (B.İ.Dodonov, İ.A.Zimnyaya, V.Kennon, E.M.Konoz, L.E.Liliyental, A.Z.Minəhmədova, N.İ.Nayenko, O.V.Ovçinnikova və b.) tədqiqatları diqqəti daha çox cəlb edir.

Qeyd edək ki, respublikamızda müxtəlif dövrlərdə aparılmış tədqiqat işləri problemin ayrı-ayrı tərəflərinin öyrənilməsinə yönəldilmişdir. Bir sıra ixtisaslar üzrə tələbələrin peşə baxımından mühüm keyfiyyətləri, şəxsiyyətinin yaradıcı keyfiyyətləri, yaş xüsusiyyətlərinə görə emosional halların təzahürü Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, M.Ə.Həmzəyev, Ə.Ə.Qədirov, Ə.T.Baxşəliyev, B.H.Əliyev, K.R.Əliyeva, S.İ.Seyidov, R.İ.Əliyev, E.İ.Şəfiyeva, S.M.Məcidova, R.V.Cabbarov, M.H.Mustafayev, C.Q.Aliyev, L.Ş.Əmrahlı, N.T.Rzayeva, Ş.Y.Abdullayeva, S.N.Əliyeva b. tərəfindən öyrənilmişdir.

Qeyd edilənlərlə yanaşı L.M.Qurbanovanın ”Tələbə gənclərin şəxsiyyətlərinin strukturunda cinsi fərqlərin xüsusiyyətləri”, L.A.Əliyevanın “Tələbələrin ailə həyatına hazırlanmasının psixoloji xüsusiyyətləri”, K.S.Salamovanın “Tələbələrin birgə fəaliyyətində ünsiyyətin psixoloji xüsusiyyətləri”, V.İ.Vəliyevanın “Müasir şəraitdə tələbə-gənclərdə sərvət meyllərinin transformasiyasının psixologiyası”, L.S.Mürsəlbəyovanın “Emosional stress şəraitində tələbələrin idrak fəaliyyətinin psixofizioloji xüsusiyyətləri”, G.N. Həsənovanın“Tələbələrin özünüreallaşdırmasında demoqrafik amillərin neqativ təsirlərinin aradan qaldırılması” ilə bağlı tədqiqat işləri problemin öyrənilməsində böyük əhəmiyyətə malikdir.

**Tədqiqatın obyekti** müxtəlf ali məktəblərdə təhsil alan tələbələrdə psixo-emosional halların təzahürüdür.

**Tədqiqatın predmeti** psixo-emosional halların tələbə şəxsiyyətininformalaşmasına təsirinin psixoloji xüsusiyyətləri, onu şərtləndirən amillərin xarakteri və istiqaməti, ona təsir göstərən amillərin öyrənilməsidir.

**Tədqiqatın məqsədi.** Emosional halların tələbə şəxsiyyətinin formalaşmasına təsirinin müəyyənləşdirilməsi, sosial şəbəkələrin tələbələrdə yaratdığı emosional təsirin araşdırılması, psixoloji texnologiyaların köməyi ilə tələbələrin emosional vəziyyətinin sabitləşməsinə təsirinin öyrənilməsidir.

**Tədqiqatın fərziyyəsi.** Tədqiqatda belə bir fərziyyə irəli sürülür ki, əgər tələbə fərdi-psixoloji xüsusiyyətlərinə görə emosional baxımdan zəifdirsə, peşəyə hazırlıq dövründə üzləşdiyi müxtəlif xarakterli pedaqoji situasiyalar, sosial şəbəkələrdə üzləşdiyi mənfi informasiyalar onun emosional halında asanlıqla dəyişmələr yaradaraq, onun davranışına təsir göstərməkdədir.

Tədqiqat işində əsas fərziyyə ilə yanaşı bir neçə əlavə fərziyyə də irəli sürülmüşdür:

1.Emosional qeyri-sabitlik tələbə şəxsiyyətinin formalaşmasına neqativ təsir göstərir;

2. Tələbə şəxsiyyətinin emosional sabitliyinin yüksək səviyyəsi müəyyən korreksiya proqramının köməyi ilə formalaşdırıla bilər;

3. Tələbələrin psixo-emosional vəziyyətinin tənzimləməsinin psixoloji-pedaqoji şərtlərinin xüsusi işlənmiş modelinin, kompleks proqramının həyata keçirilməsi tələbənin həyəcanlılıq səviyyəsinin azalmasını, onun emosional dayanıqlılığın, əhval-ruhiyyəsinin, adaptasiya səviyyəsinin yüksəlməsini, kollektiv daxili münasibətlərinin optimallaşdırılmasını təmin edərək onlarda pozitiv emosional vəziyyət formalaşdırır.

**Tədqiqatın vəzifələri.** Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıda qeyd edilən konkret vəzifələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

-Problemə aid elmi ədəbiyyatın təhlili əsasında emosional halların psixoloji mahiyyətini açıqlamaq;

- tələbələrdə emosional vəziyyətin təzahür xüsusiyyətlərini nəzərdən keçirilmək;
- tələbə şəxsiyyəti ilə emosional qeyri-sabitliyin meydana çıxması arasındakı əlaqəni öyrənmək;
- tələbə şəxsiyyətinin formalaşması prosesinə onun psixo-emosional vəziyyətinin təsirinin xüsusiyyətlərini və qanunauyğunluqlarını aşkar etmək;
- tələbə şəxsiyyətinin pozitiv "Mən"-konsepsiyasının, xüsusi olaraq yaradılmış təlim fəaliyyəti şəraitində inkişafına yönəldilmiş eksperimental proqramın işlənib hazırlanması və sınaqdan çıxarılması.

**Tədqiqatın metodologiyası və metodları.** Tədqiqatın metodoloji əsasını psixologiya elmində emosional dayanıqlılıq və şəxsiyyətin ümumi inkişafı ilə bağlı elmi müddəa və prinsiplər təşkil edir. Qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi və ilkin müddəaların yoxlanılması, onların keyfiyyət və kəmiyyət təhlili üçün bir sıra psixoloji tədqiqat metodlarından, o, cümlədən K.Rocers, R.Deymondun "Şəxsiyyətin sosial-psixoloji adaptasiyası",M.Lüşerin rəng, A.Bass-Darkanın "Şəxsiyyətin aqressiyasının

tədqiqi" metodikalarından istifadə edilmişdir. Tədqiqat17-22 yaş dövrünü əhatə edən müxtəlif ali məktəblərdə təhsil alan 380 nəfər tələbəni əhatə etmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işində ilk dəfə olaraq tələbələrin fərdi inkişafını və formalaşmasını müəyyən edən psixoloji amillər sistemi açıqlanmış, tələbə şəxsiyyətinin pozitiv "Mən-konsepsiya"sının inkişafının psixoloji şərtləri və vasitələri müəyyən edilmiş, pozitiv özünəmünasibətin şəxsiyyətin emosional sahəsinin inkişaf səviyyəsi ilə qarşılıqlı əlaqəsi və asılılığı aşkar edilmiş, tələbə şəxsiyyətinin emosional sabitlilik səviyyəsinin yüksəldilməsinin pedaqoji şərtlərinin modeli hazırlanmışdır.

İlk dəfə olaraq bu işdə:

- Tələbə şəxsiyyətinin pozitiv "Mən-konsepsiya"sının formalaşmasının əsas psixoloji şərtləri kimi xüsusi təşkil edilmiş təlim fəaliyyətində özünəinam və emosional dayanıqlılığın inkişafı öyrənilmişdir.

- Tələbələrin emosional inkişaf səviyyəsinin təlim-tərbiyə prosesində oynadığı pozitiv rola aydınlıq gətirilmiş və onun tətbiqinin yol və vasitələri göstərilmişdir.

-Tələbələrin psixo-emosional vəziyyətinin tənzimlənməsi üzrə treninqin kompleks proqramı işlənib hazırlanmış və həyata keçirilmişdir.

- Tələbənin "Mən"-konsepsiyasının və şəxsiyyətinin emosional sahəsinin, təlim prosesində xüsusi işlənib hazırlanmış korreksiya proqramından istifadə edilməklə pozitiv inkişaf dinamikası müəyyənləşdirilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Tələbələrin emosional sahəsində meydana çıxan problemlər ali məktəbin təhsil məkanında motivasiyaya və şəxsiyyətin formalaşmasına mənfi təsir göstərir.

- Şəxsiyyətin inteqrativ xassəsi kimi emosional dayanıqlılıq qarşılıqlı təsirə malik emosional, iradi, intellektual və motivasion komponentlərdən ibarət olan struktura malikdir. Emosional dayanıqlılığın dinamikası onun tərkib hissələrinin inkişaf xüsusiyyətləri ilə şərtlənirlər. Emosional dayanıqlılığın başlıca, sistem təşkiledici amili–onun emosional komponentidir.

-Psixoloji fenomen olan pozitiv "Mən-konsepsiya" tələbə şəxsiyyətinin özünüinkişafının və özünüaktuallaşdırmasının başlıca amili kimi çıxış edir. "Mən-konsepsiya"nın inkişafı tələbələrdə özünüdərkin, özünəmünasibətin, özünütənzimləmənin struktur komponentlərinin məcmusu kimi təzahür edir.

-Tələbə şəxsiyyətinin pozitiv emosional əhval-ruhiyyəsinin inkişaf etdirilməsi üzrə işin səmərəli forması-bizim tərəfimizdən işlənmiş və sınaqdan keçirilmiş, fəal təlim metodlarının istifadə edilməsinə əsaslanan, inkişafetdirici proqramdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Dissertasiyada irəli sürülən elmi-nəzəri fikirlər və müddəalar ümumi psixologiyanı yeni biliklərlə zənginləşdirir, tələbələrdə

psixo-emosinal inkişafına mane olan amillərin aradan qaldırılması işinin təşkilində yeni elmi istiqamətlərin ortaya çıxmasına zəmin yaradır.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatın nəticələrindən tələbələrini müstəqil işinin təşkil edilməsində, mühazirələrin və xüsusi kursların işlənib hazırlanmasında, psixoloji məsləhət vermədə, qrup və fərdi halda psixokorreksiya işi zamanı istifadə oluna bilər. Bununla yanaşı tədqiqatın nəticələrindən ümumi psixologiya və seçmə fənlərin tədrisində faydalanmaq olar.

**Tədqiqatların nəticələrinin aprobasiyası.** Tədqiqatın nəticələri Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun elmi seminarlarında, gənc tədqiqatçıların elmi konfranslarında müzakirə və çıxışlarda müzakirə edilmişdir. Dissertasiyanın əsas məzmunu, başlıca müddəaları, nəticə və tövsiyələri elmi məqalə və məruzə tezisləri çap olunmuş, bu yolla aprobasiyası keçirilmişdir.

**Dissertasiyanın quruluşu.**Dissertasiya giriş, 8 yarımfəsli özündə birləşdirən iki fəsil, nəticə və ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın girişində mövzunun aktuallığı əsaslandırılır. Tədqiqatın məqsədi, vəzifələri, fərziyyəsi, nəzəri və praktik əhəmiyyəti, elmi yeniliyi, metodikası və metodoloji əsasları, müdafiəyə təqdim olunan əsas müddəalar şərh olunur.

Dissertasiyanın **"Şəxsiyyətin formalaşmasına psixo-emosional halların təsirinin nəzəri-tarixi məsələləri və ədəbiyyatda qoyuluşu"** adlanan birinci fəsli dörd yarımfəsildən ibarətdir. **Fəslin "Emosiyaların tədqiqinin ümumi nəzəri-tarixi məsələləri"**adlanan birinci yarımfəslində psixoemosional hal və emosional vəziyyət anlayışlarının psixoloji mahiyyəti açıqlanır, problemə əsas yanaşmalar müqayisəli şəkildə təhlil edilir. İnsan davranışına, qarşılıqlı müansibətlərinə onun təsiri izah olunur. Aparılan təhlillərdə həm klassik, həm də müasir psixologiya elmində emosiyalar haqqındakı mənbələrə istinad edilir. Bu mənbələr əsasında emosiyaların təkamülü, emosiyaların fizioloji izahı, emosiyaların təbiəti haqqında nəzəri təsəvvürlər, insanın emosiyaları və motivasiya sistemi, psixoloji funksiyaların həyata keçirilməsində emosiyaların tənzimləyici rolu empirik surətdə açıqlanır. Bir sıra tədqiqarçılar İ.F.Herbart,Ç.Darvin,V.Vundt,U.Ceyms, K.Lange, D.Hebb, V.Vundt, T.Ribo, C.Düma, o cümlədən, İ.P.Pavlov və P.K. Anoxin,U.Mak-Dauqoll və b. aparıdqları tədqiqatlarda emosiyalar haqqındakı faktlar ümumiləşdirilir.

I fəslin"**"Problemin psixoloji ədəbiyyatda qoyuluşu"** adlı ikinci yarımfəslində XX əsrdə emosiyalar haqqında əldə edilmiş yeni faktlar əsasında onun məzmunu və tələbə gənclərdə təzahür xüsusiyyətləri təhlil olunur. Burada psixoemosional hallar bir sıra istiqamətdə qruplaşdırılır və funksiyaları şərh olunur: emosiya təəssüratlar oyadır (S.L.Rubinşteyn, Q.Ş. Şinqarov); emosiya

münasibətləri istiqamətləndirir (P.M.Yakobson, V.N.Myasişev);emosiya əksetdirməni funksiyalaşdırır (V.K.Vilyunas, Y.M.Vekker). Belə müəyyən edilir ki, emosiyaların ümumi psixoloji konsepsiyasında insan psixikası üçün əsas olan amil - insanın bütün psixi hallarını ictimai təcrübədə öyrənmə və onun mədəni-tarixi determinantlarının, eləcə fərdin böyüdüyü sosial mühitin mədəni səviyyəsinin nəzərə alınması mühüm əhəmiyyət kəsb edir.

Fəslin **"Tələbə şəxsiyyətinin formalaşması ilə emosiyaların qarşılıqlı asılılığı"**adlanan üçüncü yarımfəslində gənclik dövrünün psixoloji xüsusiyyətləri kompleks şəkildə araşdırılmışdır. Təlim prosesində tələbə şəxsiyyətinin formalaşması prosesini səciyyələndirərkən"Mən-konsepsiya"nın roluna aydınlıq gətirmək üçün bu sahədə bir neçə istiqamət üzrə araşdırmalar aparılmışdır: birincisi – psixoemosional halın özünüdərklə əlaqəsi (İ.S.Kon, A.N.Leontyev, V.S.Merlin, V.N.Myasişev, V.B.Olşanskiy, A.B.Petrovski, İ.İ.Çesnokova, S.Q.Yakobson), ikincisi ontogenezdə şəxsiyyətin inkişafının qanunauyğunluqları (B.Q. Ananyev, L.İ. Bojoviç, L.S. Vıqotski, Y.M.Orlov, D.İ. Feldşteyn, D.B. Elkonin).

Tələbələrin emosional halı onun "Mən-konsepsiya"sının emosional məzmunundan əhəmiyyətli dərəcədə asılı olur. Bunu nəzərə alaraq belə bir qənaətə gələ bilərik ki, hələ yeniyetməlik yaşında, "Mən-konsepsiya"nın formalaşdığı dövrdə onların emosional sahəsinin sağlamlığının qayğısına qalmaq lazımdır. Bundan başqa, təhlillər bizə belə bir qənaətə gəlməyə imkan verir ki, özünüdərkin mahiyyəti özünüanlama yolu ilə açılır. Bu isə öz növbəsində pozitiv, emosional baxımdan sağlam "Mən-konsepsiya"nın inkişaf etdirilməsinin psixoloji şərtlərindəndir.




*Şəkil 1.1. Emosional hallar və şəxsiyyət komponentləri arasındakı əlaqələrin məzmunu*

Fəslin **"Problemin tədqiqi metodikası"** adlanan dördüncü yarımfəslində tədqiqatın istiqamətləri müəyyənləşdirilmişdir. Tədqiqat 2008-2012-ci illər ərzində, iki ali məktəbin - Bakı Slavyan Universiteti və Sumqayıt Dövlət Universitetinin bazasında keçirilmişdir. Empirik tədqiqatın obyekti kimi I, II, III, IV kurs tələbələri seçilmişdir. Tədqiqatda 380 nəfər (158 qız və 122 oğlan) iştirak etmişlər. Sınaqda iştirak edənlərin yaş hədləri 17-22 arasında olmuşdur.

Tədqiqat dörd mərhələdə -hazırlıq mərhələsi, təcrübi-eksperimental mərhələ, formalaşdırıcı eksperimentin keçirilməsi, yekun mərhələdə həyata keçirilmişdir.

Dissertasiyanın **“Tələbə şəxsiyyətinə psixo-emosional halların təsirinin tənzimlənməsi”**adlanan ikinci fəsli dörd yarımfəsildən ibarətdir. Fəslin **“Psixoemosional halların mahiyyəti və təzahür xüsusiyyətləri”** adlanan birinci yarımfəslində tələbə gənclərin üzləşdikləri spesifik emosional halların şərhi verilir, onun yaranma səbəbləri araşdırılır. Bu yarımfəsildə eyni zamanda psixoemosional hallar – affekt, qorxu, həyəcan, frustrasiya anlayışlarının mahiyyətinə aydınlıq gətirilmişdir. Qeyd ounur ki, affekt halında insan güclü şəkildə keçirdiyi qorxu, hiddət, qəzəb və s. hisslərə qapılır. Qorxu - fərdin bioloji və ya ictimai mövcudluğuna təhlükə törədən vəziyyətlərdə meydana çıxan, həqiqi və ya uydurulmuş təhlükənin mənbəyinə yönəlmiş emosiyadır. Əgər təhlükənin mənbəyi müəyyən edilməmiş və ya tanınmamışdırsa, bu halda meydana gələn hal həyəcan adlanır. Həyəcan-təhlükənin qeyri-müəyyənliyi vəziyyətlərində baş verən və hadisələrin uğursuz inkişaf edəcəyi ilə bağlı gözləmə vəziyyətində üzə çıxan emosional haldır. Frustrasiya (latınca-frus- tratio-pozğunluq, planların dağılması) məqsədə nailolma, yaxud tapşırığın həlli zamanı meydana çıxan, insanın keçilməz obyektiv çətinliklərinə səbəb olan psixi vəziyyətidir. Frustrasiya uyğunsuzluğun, yaxud həllolunmaz ziddiyyətin ağır təəssüratıdır. Bu yarımfəsildə eyni zamanda aqressiyanı frustrasiya ilə əlaqələndirən nəzəriyyələr (Maller, Dub, Dollard, Miller, Maurer) təhlil edilmişdir.

Fəslin**“Tələbə şəxsiyyətinə təsir göstərən psixoemosional hallar”** adlı ikinci yarımfəslində tələbə şəxsiyyətinin formalaşmasına psixoemosional proseslərin təsiri müəyyənləşdirilir. Əvvəlcə tələbə şəxsiyyətinin strukturunda emosional halların yeri müəyyənləşdirilmişdir. Bunun üçün aşağıdakı pozitiv inkişaf modelindən istifadə edilmişdir.




*Şəkil 2.1.Tələbə şəxsiyyətinin pozitiv inkişaf modeli*

Məlum olduğu kimi, psixologiyada insanın emosional sahəsinin tədqiqində rəng metodikalarına geniş yer verilir. Bunu nəzərə alaraq əvvəlcə

M.Lüşerin rəng testi tətbiq olundu. Testin göstəricilərinə görə, sınanılanların yalnız1/5 hissəsində (47 nəfər,12,3%) nəticələr harmonik norma səviyyəsində qiymətləndirilmişdir. Emosional gərginlik 132 nəfərdə (34,7%) müşahidə olunmuşdur. Sınanılanların 92 nəfərində (24,2%) özünümüdafiə mövqeyi və iqtisadi baxımdan əmin-amanlığın təmin olunması üçün çıxılmaz vəziyyətin irrasional üsullarla həllinə meyletmə aşkar olunmuşdur (2-ci və 5-ci rənglərin əhəmiyyətli mövqeyi). 32 nəfərdə (8,4%) pozitiv tələbat və emosiyaların ödənilməsinin frustrasiyası (4-cü rəngin əhəmiyyətli mövqeyi) qeydə alınmışdır. Oğlanlar və qızlar qrupu üzrə seçimlər "autogen norma"dan, yəni orta harmonik seçimdən, qərarların qəbul edilməsində daha az ifadə olunmuş müstəqilliklə, müdafiə mövqeyi ilə çətinləşdirilmiş sosial adaptasiya ilə fərqlənirdi.

Tələbələrin 132 nəfərində (34, 7 %) ifadə olunmuş emosional gərginlik var. 92 nəfər (24, 2 %) ehtiyat-mühafizə mövqeyindədir. Şəxsiyyətlərarası münasibətlərdə çətinliklərlə harmonik normanın faiz göstəriciləri üst-üstə düşür. Pozitiv tələbat və emosiyaların frustrasiyalı vəziyyətində, eləcə də dezadaptaiya əlamətləri olanların göstəriciləri də bir-birinə yaxındır (8,6 %-7,9 %).

***Tələbələrin M.Lüşerin rəng metodikası üzrə seçimləri***

*Cədvəl 2.1*

| Psixoemosional problemlər | Tələbələrin sayı (nəfər) | %-lə |
|---|---|---|
| 1.Dezadaptasiyanın əlamətləri | 30 | 7,9 |
| 2. Şəxsiyyətlərarası münasibətlərdə cətinlik | 47 | 12,3 |
| 3. Harmonik norma | 47 | 12,3 |
| 4. İfadə olunmuş emosional gərginlik | 132 | 34,7 |
| 5. Ehtiyat-mühafizə yönümləri | 92 | 24,2 |
| 6. Pozitiv tələbat və emosiyaların frustrasiyası | 32 | 8,6 |

Ümumilikdə tələbələrdə həyəcanlılığın müəyyən edilməsi üzrə apardığımız tədqiqatda şəxsi həyəcanın orta səviyyədə olduğu tələbələrin sayının 89 nəfər (23,4%) olmasına baxmayaraq yüksək şəxsi həyəcanın üstünlük təşkil etdiyi tələbələrin sayı - 104 nəfər(27, 3%) olmuşdur.

Tədqiqatın növbəti mərhələsi - şəxsi frustrasiya səviyyəsinin ekspress-diaqnostikası oldu. V.V.Boykonun metodikasından istifadə edərək aşağıdakı nəticələrə gəldik.

*Şəxsi frustrasiya səviyyəsinin diaqnostikası*

*Cədvəl 2.2*

| Kurs | Şəxsi frustrasiya səviyyəsi | | |
|---|---|---|---|
| I – 117 | yüksək | orta | aşağı |
| | 45,2% | 24,7% | 29,9% |
| II - 101 | 28,7% | 37,6% | 33,6% |
| III - 96 | 45,8% | 22,9 | 31,2% |
| IV - 66 | 18,1% | 27,2% | 54,5% |
| Cəmi: 380 nəfər | 138 | 107 | 135 |

I kurs üçün yüksək - 53 nəfər (45,2%), II kurs üçün dayanıqlı - 38 nəfər (37,6%), III kursda - yüksək frustrasiya səviyyəsi,IV kursda bu göstəricinin aşağı düşməsi səciyyəvidir - 36 nəfər (54,5%).




***Şəkil 2.2. Tələbələrdə frustrasiya səviyyələrinin korrelyasiyası***

Aydın oldu ki, tələbələrin psixoemosional vəziyyəti onların fəaliyyət motivinə, şəxsiyyətlərarası münasibətlərə, özünü və başqalarını qiymətləndirməyə, qrupdakı ünsiyyətinə bilavasitə təsir göstərir.Yüksək həyacan səviyyəsinə malik tələbələri qapalılıq və aşağı ünsiyyət səviyyəsi fərqləndirir. Bir qayda olaraq, onlar təşəbbüskar deyillər, bu, müvəffəqiyyətsizliyin gözləntisi və aşağı səviyyəli özünüqiymətləndırmə ilə bağlıdır. Əksinə, aşağı həyacan səviyyəsinə malik olan tələbələr ünsiyyətə meylli və təşəbbüskardırlar, lakin onlara müxtəlif həyat vəziyyətlərinə zəif emosional cəlbetmə, hisslərin ifadə edilməsində təmkinlilik xasdır.

İmtahan ərəfəsində tələbələrin qorxusunun səviyyəsi müəyyən fərdi xüsusiyyətlərlə, davranış formaları, təlim fəaliyyətinin üslubu, motivasiya ilə qarşılıqlı əlaqədədir. İmtahan ərəfəsində tələbələrin qorxu səviyyəsinin, habelə emosional-koqnitiv sahədəki təzahürlərin səviyyəsinin yüksəlməsi şəxsiyyətlərarası münasibətlərin, rol davranışın ifadəsi ilə bağlıdır. İmtahanqabağı qorxunun səviyyəsinin azalması tələbənin özünümüdafiə mövqeyi tutaraq daxili qüvvələrin imtahan materiallarını öyrənməyə və

mənimsəməyə yönəltməsi səbəbindən irəli gəlir. Bu cür tənzimlənən fəaliyyət özünütənzimləmə sisteminin formalaşma səviyyəsi, öyrənmə üslubunu qəbul etməyə və bəyənməyə istiqamətlənmiş fəal mövqeyi ilə bağlıdır. Oğlan və qızlarda imtahan ərəfəsində qorxunun təzahüründə fərqlər müəyyən edilmişdir. Qızlarda qorxu daha yüksək səviyyədə ətrafdakılara münasibətdə, oğlanlarda isə özünə münasibətdə disharmonik fərdi meyllərin üstünlük təşkil etməsi ilə səciyyələnir.

Fəslin **"Pedaqoji situasiyanın tələbələrdə yaratdığı psixoemosional hallar və onların şəxsiyyətin formalaşmasına təsiri"** adlı üçüncü yarımfəslində tələbə şəxsiyyətinin formalaşmasına təsir göstərən bu və digər emosional halların onlarda hansı səviyyədə təzahür etdiyini, tələbələrin hansı emosional halların təsirlərinə daha çox məruz qaldıqlarını və buna açıq olduqlarını, hansı emosional halların təsirlərinin aradan qaldırılması və ya qarşısının alınmasını daha çox istədiklərini aydınlaşdırmaq üçün Bakı Slavyan Universiteti və Sumqayıt Dövlət Universitetində eksperimentlər aparıldı. Tədqiqata Bakı Slavyan Univeristetinin filologiya və Sumqayıt Dövlət Universitetinin iqtisadiyyat fakültələrində təhsil alan 120 nəfər I-III kurs tələbəsi cəlb olundu.

***I kurs tələbələrinin K.Rocers, R.Deymondun "Şəxsiyyətin sosial-psixoloji adaptasiyası"nın göstəriciləri***

*Cədvəl2.3*

| № | | Göstəricilər | Təbələrin sayı | | Normalar |
|---|---|---|---|---|---|
| | | | oğlan - 30 nəfər | qız - 30 nəfər | |
| 1 | a | Adaptivlik | 17 | 19 | 68-136 |
| | b | Dezadaptivlik | 13 | 11 | |
| 2 | a | Yalançılıq | 9 | 8 | 18-36 |
| | b | Doğruçuluq | 21 | 22 | |
| 3 | a | Özünüqəbuletmə | 22 | 21 | 22-42 |
| | b | Özünü qəbul etməmək | 8 | 9 | 14-28 |
| 4 | a | Başqalarını qəbuletmə | 23 | 25 | 12-24 |
| | b | Başqalarını qəbul etməmək | 7 | 5 | 14-28 |
| 5 | a | Emosional komfort | 11 | 10 | 14-28 |
| | b | Emosional diskomfort | 21 | 20 | 14-28 |
| 6 | a | Daxili nəzarət | 20 | 22 | 26-52 |
| | b | Xarici nəzarət | 10 | 8 | 18-36 |
| 7 | a | Dominantlıq | 13 | 11 | 6-12 |
| | b | Çərçivədə olmaq | 17 | 19 | 12-24 |
| | | Problemdən qaçmaq | 16 | 22 | 10-20 |

Bu nəticələr əsasında I kurs tələbələrinin əsas adaptasiya şkalaları üzrə göstəricilərini müəyyənləşdirdik. Həmin şkalalar bunlardır: “Adaptasiya”;“Özünüqəbul-etmə”;“Başqalarını qəbuletmə”;“İnternallıq”;“Emosional komfort”;“Dominantlığa cəhdetmə”.

Bu test bizə I kursa qəbul olunmuş tələbələrin emosional sahəsində yarana biləcək neqativ halları müəyyən etməyə imkan verdi. Testin nəticələrinə görə I kursda təhsil alan tələbələrin elə tərəfləri vardır ki, (emosional diskomfort), hətta sınanılanların 36 nəfəri (60 %) bundan əziyyət çəkir. Həmin tələbələrdə həyacan, qorxu, aqressiya, frustrasiya, təəssüf kimi emosional halların hamısının bir arada ola bilməsi də mümkündür. Beləliklə, şkalalar üzrə nəticələri belə sıralıya bilərik:emosional diskomfort - 36 nəfər; çərçivədə olmaq - 35 nəfər; dezadaptasiya - 24 nəfər; eksternallıq- 18 nəfər;özünüqəbuletməmək-17 nəfər; başqalarını qəbul etməmək - 12 nəfər.

***I kurslarda K.Rocers, R.Deymondun “Şəxsiyyətin sosial-psixoloji adaptasiyasınındiaqnostikası” üzrə şkalalara görə yekun nəticələri***

*Cədvəl 2.4*

| Şkalalar | | 1 | | 2 | | 3 | | 4 | | 5 | | 6 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | üstün | zəif | üstün | zəif | üstün | zəif | üstün | zəif | üstün | zəif | üstün | zəif |
| Tələ-bələr | oğlan | 17 | 13 | 22 | 8 | 23 | 7 | 20 | 10 | 11 | 19 | 13 | 17 |
| | qız | 19 | 11 | 21 | | 25 | 5 | 22 | 8 | 10 | 20 | 11 | 19 |
| Cəmi | | 36 | 24 | 43 | 17 | 48 | 12 | 42 | 18 | 21 | 39 | 24 | 35 |

Tədqiqat zamanı həm I, həm də III kurs tələbələrində özünəmünasibəti öyrəndik. S.R.Panteleyevin problemlə bağlı işlənmiş metodikasını (ÖMT) tətbiq edildi.I kurs tələbələrinin 60 nəfərdən 34 nəfəri (56,6%) müxtəlif şkalalar üzrə yüksək nəticələr göstərmişlər. Yüksək nəticələrin göstərildiyi şkalalar: daxili münaqişəlilik- 34 nəfər, özünəinam - 12 nəfər, özünəbağlılıq - 18 nəfər, özünərəhbərlik -16 nəfər olmuşdur. Tələbələrin 31 nəfərində “qapalılıq” orta səviyyədə aşkar edilmişdir.

Əgər I kursda əldə etdiyimiz göstəricilərdə müxtəlif şkalalar üzrə bir-birindən fərqli nəticələr aşkar edilmişdilərsə, III kursda bu göstəricilər bir-birinə daha yaxındır. Məsələn, “özünüqəbuletmə” -27, “özünüqiymətləndirmə” -26, “daxili münaqişəlilik” -25 və s. Bu onu göstərir ki, 3 il ərzində aldıqları təhsilin eyni səviyyəsi onların peşə hazırlığındakı bilik və bacarıqlarında oxşar təsəvvürlər yaradır. Fərdi xüsusiyyətləri, maraqları, dərketmə fəallığı kimi sahələrdə fərqli olsa belə, görünür ki, təhsil mühitinin yaradıcı olmaması tələbələrə öz imkanlarını kifayət qədər reallaşdırmağa imkan vermir.

Tədqiqatımızın növbəti mərhələsi - tələbələrin emosional dayanıqsızlılığının tədqiqi, şəxsiyyətin strukturunda həyacanın səviyyəsinin, aqressiyanın, frustrasiyaedici ünsürlərin aşkar edilməsi və paylanması vəziyyətini öyrənmək oldu. Həyəcan səviyyəsinin tədqiqi ilə yanaşı, tərəfimizdən, aqressiyanın aşkar edilməsi üzrə də verilənlər toplanmışdı (A.Bassın-Darkanın "Şəxsiyyətin aqressiyasının tədqiqi metodikası").

***Tələbələrin aqressiyasının tədqiq edilməsinin nəticələri (A.Bass-Dark metodikası)***

*Cədvəl 2.5*

| | | I Kurs nəfər | III Kursnəfər | Yekunnəfər |
|---|---|---|---|---|
| 1 | Fiziki aqressiya | 7 | 5 | 12 |
| 2 | Dolayı aqressiya | 39 | 43 | 82 |
| 3 | Əsəbiliyə meyil | 51 | 48 | 99 |
| 4 | Neqativizm | 28 | 31 | 59 |
| 5 | İnciklik | 34 | 27 | 61 |
| 6 | Şübhəlilik | 27 | 23 | 50 |
| 7 | Verbal aqressiya | 37 | 39 | 76 |
| 8 | Günah hissi | 19 | 25 | 44 |

Tədqiqatın başlanğıc mərhələsində aşağıdakı parametrlər öyrənilərək nəticələr əldə edilmişdir. Bu nəticələrə görə, tələbələrin şəxsiyyətinə təsir göstərə biləcək bir sıra psixoemosional hallar daha yüksək faiz dərəcələri ilə qeydə alınmışdır ki, biz onları kəmiyyət ardıcıllığına görə bilərik.




***Şəkil. 2. 3. I və III kurs tələbələrində aqressiya növlərinin paylanması***

Tələbələrin emosional problemlərinin yaranmasının əsas səbəbinın müəyyənləşdirilməsi məqsədilə 2 eksperimental qrupda tədqiqat aparıldı. Onlardan biri Bakı Slavyan Universitetinin filologiya, digəri Sumqayıt Dövlət Universitetinin iqtisadiyyat fakültələrinin tələbələrindən formalaşdırılmaqla hər birində 30 nəfər təmsil olundu. Eksperimental tədqiqat 60 nəfər I və III kurs tələbələri ilə aparıldı. Əvvəlcə tələbələr üçün müxtəlif pedaqoji situasiyalar yaradıldı. Bu prosesdə S.V.Duxnovskinin psixoloji situasiyalarla bağlı konsepsiyası əsas götürüldü: ölçmə xarakterli situasiyalar (müxtəlif situasiyalara yönələrək nəyi isə ölçməyə istiqamətlənmək);komponentli (konkret, unikal situasiyada komponentləri bir-birindən ayırmaq); sosial davranışın xüsusi növlərini, yaxud kommunikasiyanın spesifik tiplərini öyrənmək, məsələn, pedaqoq-tələbə (konformluq, alturistik və b.); mühit - situasiyanın mühit xarakterinə diqqət yetirilir; ekoloji - submədəni faktorlara diqqət yetirilir, bu halda tədqiqatın predmeti koqnitiv proseslər deyil, müşahidə edilən davranış olur; etiogenetik - bu halda əsas diqqət sosial epizodlara, həmin epizodlarda icra olunan rol və qaydalara yönəlir, hadisələrin qiymətləndirilməsində ona təsir göstərə biləcək şəxslərin qiymətləndirmələrindən istifadə olunur. Eksperimental qrupda bu situasiyaların hansında daha çox qorxu və həyacanlanma olduğunu müəyyənləşdirmək üçün E.İ.Roqovun "Qorxu hissinin müəyyənləşdirilməsi" üzrə qoyulmuş suallar ali məktəb mühitinə uyğunlaşdırıldı. Verilən cavablar 5 varianta bölündü: həyəcan - 1/8;frustrasiya -1/7;qorxu 1/5;utancaqlıq -1/4;aqressiya 1/3.

Tələbələri pedaqoji prosesdə həyəcanlandıran, frustrasiya, qorxu, utancaqlıq və aqressiya yaradan halların baş verməsinə səbəb olan pedaqoji situasiyaların təhlili üçün yeni metodika - "Pedaqoji situasiyalar" testi seçildi.

***"Pedaqoji situasiyalar" testi üzrə tələbələrin qiymətləndirmələri***

*Cədvəl 2.6*

| Müəllimlərə verilən ballar | aşağı səviyyə 14-28 bal | orta səviyyə 29-55 bal | yuxarı səviyyə 56-70 bal |
|---|---|---|---|
| | 20 nəfər | 31 nəfər | 9 |
| faizlə | 33,3 % | 51,7 % | 15,0 % |

Bu sorğunun nəticələrində hansı pedaqoji situasiyaların tələbələrdə daha çox neqativ emosional hal yaratdığı da aşkar olundu. Belə situasiyalara aşağıdakılar daxildir: tələbələrin şəxsi ləyaqət hissini şübhə altına alan, onların mənfi keyfiyyətlərini qabardan;tələbələri həmyaşıdları qarşısında çıxılmaz vəziyyətdə qoyan, onları rişxənd obyektinə çevirən; tələbələrin real vəziyyətini aşkara çıxararaq öz "Mən"i qarşısında çarəsiz buraxan;onlarda

özünüqiymətləndirmə ilə sosial qiymətləndirmə arasındakı ziddiyyətləri aşkara çıxaran; tələbələrə müəllimi yanında hörmətsiz və dəyərsiz olduğunu sübut edən; özlərindən bədgümanlıqlarını təsdiq edən; qrupda ən zəif tərəfmüqabil olduğunu göstərən.

Fəslin **"Tələbələrin emosional vəziyyətini tənzimləyən psixoloji texnologiyalar"** adlanan dördüncü yarımfəsilində tələbələrin psixoemosional vəziyyətinin tənzimlənməsinin psixolooji şərtləri üzrə model işləyib hazırlandı. Modelin komponentləri: təşkilatı (tələbələrin emosional vəziyyətini tənzimləyən kompleks proqramların istifadə edilməsi); tədqiqatçı (psixodiaqnostik tədbirlər); qnostik (informasion-dərketmə şərtləri: leksik-praktiki məşğələlər, emosional dayanıqlılıq vərdişlərinin işlənib hazırlanmasına yönəlmiş məsləhətlər); praktiki (psixoprofilaktiki və psixokorreksiya tədbirləri - emosional sferanın sabitliyini tənzimləyən treninqlər, autotreninqlər, özünütənzimləmə üsulları.

Tədqiqatda aparılmış təhlillər əsasında aşağıdakı nəticələr əldə edilmişdir:

-Elmi ədəbiyyatda emosional sahənin ayrı-ayrı komponentlərinin formalaşması və inkişafı məsələlərinə fəaliyyətin emosional tənzimlənməsi, qarşılıqlı münasibətlər, özünüqiymətləndirmənin formalaşması, emosional sahənin korreksiyası kontekstində xüsusi diqqət yetirilir.

-Tələbə yaşı emosional reaksiyaların və emosional vəziyyətlərin yüksək dərəcədə differensiasiyası, habelə özününəzarət və özünütənzimləmənin səviyyəsinin yüksəlməsi ilə səciyyələnir. Bu yaşın ümumi xüsusiyyətləri kimi əhval-ruhiyyənin, qarşısı alınmayan şənlikdən ruh düşkünlüyünə qədər, dəyişkənliyi və bir-birini əvəz edərək meydana çıxan bir sıra əksqütblü keyfiyyətlərinin uzlaşması xarakterikdir. Bunlara xüsusi senzitivliklə müşayiət olunan keyfiyyətlər: digərləri tərəfindən özünün xarici görünüşünün, qabiliyyətlərinin, bacarıqlarının qiymətləndirilməsinə münasibət özünəinam, ətrafındakılara münasibətdə tənqidilik xasdır.

-Tələbə yaşının psixoloji xüsusiyyətləri hər bir kursda tələbələrin inkişafının fərdi-tipoloji xarakteri ilə təzahür edir. Əgər birinci kursda adaptasiya prosesi başlanır və bu fonda yaranan emosional hallar ya inkişaf edir, ya da zəifləyirsə, artıq III kursda tələbələrin özünümüəyyənləşdirmə və özünü peşəyə identifikasiya imkanlarından şəxsiyyətin quruluşunda sabitləşmə gedir. Bu proses tələbələrin psixoemosional vəziyyətindən birbaşa asılı olur.

- Əgər tələbələrdə emosional sahə daha çox pozitiv psixoloji amillərlə formalaşırsa, onun şəxsiyyətinin quruluşu da özünəinama və özünüfəallaşdırmaya köklənmiş olur. Əksinə, tələbədə müxtəlif məzmunlu neqativ emosional hallar tez-tez yaranır, onların şəxsiyyətinin formalaşması, peşə sahəsi üzrə səriştələrə sahib olma, həmyaşıdlar və müəlimlərlə qarşılıqlı münasibətlərin tənzimlənməsi də lazımı səviyədə olmur. Normal halda isə, aşağı

kurslarda müşahidə edilən zəif uyğunlaşma, özü hərəkətlərini zəif tənzimlənmə və davranışdakı qeyri-adekvatlıq artıq tələbəliyin sonunda bir çox həyati dəyərlərin və özü haqqında dəqiq təsəvvürlərin formalaşması ilə nəticələnir.

- Tələbələrin psixoemosional vəziyyəti onlarda şəxsiyyətin formalaşması prosesi ilə birbaşa əlaqədə olub fəaliyyət motivinə, ustanovkaya, şəxsiyyətlərarası münasibətlərə, özünü və başqalarını qiymətləndirməyə, qrupdakı ünsiyyətinə, nəhayət təlim uğurlarına səbəb ola biləcək əqli fəallığına bilavasitə təsir göstərir. Tələbənin tədris prosesində yaşadığı psixoemosional hallar onun fəaliyyətini də motivləşdirmək xüsusiyyətinə malikdir.

-Aydın oldu ki, tələbələrdə neqativ psixoemosional halların olmasının başlıca səbəbi onlarda bu və digər səbəblərdən yaranan özünəəminsizlik, qorxu və natamamlıq hissləridir. Bunlara əlverişsiz tədris mühitindəki pedaqoji situasiyaların, sosial şəbəbkələrin neqativ təsirləri də əlavə olunduqda, onlarda emosional gərginlik daha da artır.

- Tədqiqatdan məlum oldu ki, həyacan bir çox halda tələbənin davranışını şərtləndirir. Həyacanın müəyyən səviyyəsi şəxsiyyətin fəal davranışının təbii və mütləq xüsusiyyəti kimi özünü göstərir. Həyacanın səviyyəsi tələbənin müəyyən vəziyyətə daxili münasibətini göstərməklə həmyaşıdları və yaşlılarla qarşılıqlı münasibətlərinin xarakteri haqqında dolayısı ilə məlumat verir. Optimal səviyyəni aşdıqda isə, həyacanın yüksək təzahürü haqqında danışmaq olar. Yüksək səviyyə bu və ya digər sosial şəraitə kifayət etməyən emosional uyğunlaşmanı sübut edir. Bu həyacan səviyyəsinə malik olan tələbələr özlərinə zəif, bacarıqsız fərd kimi münasibət bəsləyirlər.

- Həyacanlı tələbələr, bir qayda olaraq, qrupda hamı tərəfindən qəbul edilmir, lakin təcrid də edilmirlər. Özlərinə arxayın olmadıqlarına görə bu tələbələr az populyar olanlar qrupuna daxil olurlar. Həmin tələbələr qapalı, ünsiyyətdən qaçan, və yaxud, əksinə, həddən artıq ünsiyyətcil (zəhlətökən), qəzəbli olurlar. Onların populyar olmamalarının səbəbi həm də təşəbbüs göstərə bilməmələridir. Bu tələbələr şəxsiyyətlərarası qarşılıqlı münasibətlərdə təqdir edilmir, lider ola bilmirlər.

-Tədqiqat zamanı oğlan və qızlarda imtahan ərəfəsində qorxunun təzahüründə fərqlər müəyyən edilmişdir. Qızlarda ətrafdakılara münasibətdə və imtahan müddətində qorxunun səviyyəsi daha yüksək, oğlanlarda isə imtahan müddətində qismən zəif, özünə münasibətdə disharmonik fərdi meyillər üstünlük təşkil etməsi ilə səciyyələnir.

- Əlverişli psixoloji texnologiyaların köməyi ilə tələbələrin emosional vəziyyətinin yaxşılaşdırılması mümkündür. Bu prossdə sistemlilik, nəzəriyyənin və praktikanın vəhdəti, təhsilin humanistləşdirilməsi prinsipləri gözlənildikdə, tələbələrdə "Mən-konsepsiya" və şəxsiyyətin pozitiv tamlığının

qorunub saxlanılması, fərdi potensialın reallaşdırılmasına yönəlmiş fəal, dərkolunan fəaliyyətin təşkili təmin olunduqda, onların emosional vəziyyəti: həyacan, frustrasiya, qorxu, utancaqlıq, aqressiya, ümumiyyətlə, emosional gərginlik və s. qarşısı əhəmiyyətli dərəcədə alınır.

**Dissertasiyanın əsas müddəaları aşağıdakı məqalə və tezislərdə öz əksini tapmışdır:**

1. Cənclərin dünyagörüşünün formalaşmasının psixoloji məsələləri // Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, Bakı,2007,№1-2(14-15), s.190-192
2. Şəxsiyyətin psixi aləmində emosiyaların rolu /Tədris prosesinin təkmilləşdirilməsinin pedaqoji-psixoloji problemləri"mövzusunda beynəlxalq konfransın materialları. Naxçıvan: 2011, s.192-193
3. Elmi ədəbiyyatda psixi halət anlayışı / Doktorantların və gənc tədqiqatçıların XVII Respublika elmi konfransı. Bakı: 2012,s.34-35
4. "Mən-konsepsiya"nın emosional gərginliyin xarakteri ilə əlaqəsi // Psixologiya jurnalı, Bakı, 2012, №3, s. 3-15.
5. Elmdə emosiyalar haqqında təlimlərin meydana gəlməsi və tarixi inkişafı // Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Elmi Xəbərləri, Bakı, 2013, №1, s.128-134
6. Emosiyalar probleminə nəzəri-tarixi yanaşmalar // Bakı Slavyan Universitetiinin Elmi əsərləri,Bakı,2014, №1,s.163-168.
7. Şəxsiyyətin psixi aləmində emosiyaların roluna mövcud baxışlar //Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri,Bakı, 2015, №2 , s.34 -37
8. Tələbələrin şəxsiyyətinin səciyyəvi xüsusiyyətləri / Azərbaycanda təhsil quruculuğunun prioritetləri: Müasir yanaşmalar. Beynəlxalq elmi konfransın materialları. Naxçıvan: 2015,s.285-287
9. Tələbə şəxsiyyətinin səciyyəvi xüsusiyyətləri və onlarda emosional halları yaradan amillər // Azərbaycan Dillər Universitetinin Elmi xəbərləri, Bakı,2015, №2 , s.357-362
10. Психологические технологии по урегулированию эмоционального состояния студентов // Азимут научных исследований: педагогока психология, Г.Тольятти, 2015, №4 (13), с.112-115
11. Tələbənin şəxsiyyət kimi formalaşması ali təhsil müəssələrinin aktual problemi kimi // Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, Bakı, 2016, №1, s. 175-179

**Айна Ширзад гызы Гаджиева**

**Влияние психоэмоционального состояния на формирование личности студента**

**Резюме**

Диссертационная работа посвящена одной из актуальных проблем психологии– изучению влияния психоэмоционального состояния на формирование личности студента. Студенческий возраст характеризуется высокой степенью дифференциации эмоциональных реакций и эмоциональных состояний, а также повышенным уровнем самоконтроля и саморегуляции. С этой точки зрения изучение психологических закономерностей, определяющих эмоциональное состояние студентов, имеет особое значение.

Диссертация состоит из введения, двух глав, заключения и списка использованной литературы.

Во введении обосновываются актуальность темы, степень изученности, объект и предмет, цели и задачи, методологические основы и методы, гипотезы, научная новизна, теоретическое и практическое значение исследования, рассматриваются положения, вынесенные на обсуждение.

В главе I диссертации **«Теоретико-исторические вопросы влияния психоэмоциональных состояний на формирования личности и их постановка в научной литературе»** раскрывается психологическая сущность понятий «психоэмоциональное состояние» и «эмоциональная ситуация», в сравнительном плане анализируются основные подходы к проблеме. В данной главе, основываясь на определенных критериях, психоэмоциональные состояния группируются, а также раскрываются их функции. Наряду с этим, комплексно изучаются психологические особенности юношеского возраста, вносится ясность в методику исследования проблемы.

В главе II диссертационной работы под названием **«Регуляция влияния психоэмоциональных состояний на личность студента»** рассматриваются специфические эмоциональные состояния, с которыми сталкивается студенческая молодежь, обосновываются причины их появления, определяется влияние психоэмоциональных процессов на личность студента. Психоэмоциональное состояние студентов непосредственно влияет на мотив их деятельности, межличностные отношения, самооценку и оценку других, общение в группе. Здесь подчеркивается, что первопричиной возникновения негативных психоэмоциональных состояний у студентов является, появившаяся по тем или

иным причинам, неуверенность в себе, а также чувства страха и неполноценности. Если прибавить к этому негативное влияние педагогических ситуаций, социальных сетей, то эмоциональное напряжение накаляется до предела.

В заключительной части диссертации в виде конкретных положений обобщаются основные выводы исследования.

**Ayna Shirzad Hajiyeva**

**Influence of a psychoemotional condition on formation of the student's person**

**Summary**

The dissertational work is devoted to studying of influence of a psychoemotional condition on formation of the person of the student, as one of the actual problems of the modern period. The student's age is characterised by high degree of differentiation of emotional reactions and emotional conditions, and also the raised level of self-checking and self-control. From this point of view studying of psychological regularity of an emotional condition of the students trained in different high schools, has special value.

The dissertation consists of the introduction, two chapters, the conclusion and the list of the used literature.

In introduction the theme urgency, degree of a level of scrutiny, object and a subject, the purposes and problems are proved, methodological bases and methods, hypotheses, scientific novelty, theoretical and practical value of research, in appropriate way are made comments the positions brought for discussion.

In the chapter I of the dissertation **"Theoretical-historical questions of influence of psycho-emotional conditions and their statement in the scientific literature"** the psychological essence of concepts «a psychoemotional condition» and «an emotional situation» reveals, in the comparative plan the basic approaches to a problem are analyzed. In the given chapter psycho-emotional conditions are grouped in several directions, and also their functions are made comments. Along with it, psychological features of youthful age are in a complex studied, clearness is brought in a technique of research of a problem.

In the chapter of II dissertational work under the name **"Regulation of influence of psychoemotional conditions on the person of the student"** specific emotional conditions which the student's youth faces are made comments, the reasons of their occurrence are proved, influence psychoemotional processes on the person of the student is defined. The psychoemotional condition of students directly influences motive of their activity, interpersonal relations, a self-estimation and an estimation of others, dialogue in group. Here it is underlined, that an original cause of occurrence of negative psychoemotional conditions at students is the uncertainty which has appeared for whatever reasons in, and also feelings of fear and inferiority. If to

add to it negative influence of pedagogical situations, social networks in the course of training the emotional pressure is heated to a limit.

In a conclusion part of the dissertation is the resume in the form of concrete thesis's the basic results of research.

Sifariş № 205
Tiraj 100.
“Ecoprint” mətbəəsində çap olunub.

# МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
# БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

*На правах рукописи*

**Айна Ширзад гызы Гаджиева**

# Влияние психоэмоционального состояния на формирование личности студента

**6107.01- Общая психология**

# АВТОРЕФЕРАТ

**Диссертации на соискание ученой степени доктора философии по психологии**

**Баку - 2016**